# Dünya erməniliyinin ABŞ-dakı “soyqırımı oyunu” bu xəstə ruhlu topluma yeni üzüntü yaşadacaq

***Azərbaycan–Türkiyə dostluğu və əməkdaşlığı hər sınaqda bir az da dərinləşir və möhkəmlənir. Ötən ilin payızında 44 günlük II Qarbağ savaşı zamanı Türkiyə Respublikası, onun rəhbərliyi və xalqı Azərbaycanın yanında olduğu kimi, bu günlərdə ABŞ-da gerçəkləşdirilmiş uydurma “erməni soyqırımı” siyasi oyunu ilə qardaş ölkənin hədəfə alınması da Azərbaycanda sıravi vətəndaşdan tutmuş dövlət rəhbərinədək hamını hiddətləndirərək misilsiz bir yekdillik və həmrəylik doğurdu. Bu mövzuda müsahibimiz Milli Məclisin deputat, fəlsəfə doktoru Cavanşir Feyziyevdir.***



***– Qarabağ savaşındakı rüsvayçı məğlubiyyətdən sonra İrəvanda 5 aydan artıq müddətdə davam edən kütləvi məyusluğun fonunda bu günlərdə ABŞ-dan gələn xəbər Ermənistan və dünya erməniliyi tərəfindən şadyanalıqla qarşılandı. Lakin Türkiyə–ABŞ hərbi-strateji əməkdaşlığının ümumi kütləsi və Azərbaycan–Türkiyə dostluğu fonunda İrəvandakı bu ötəri ruh yüksəkliyi batmaqda olan “Ermənistan gəmisi”ni xilas etmək üçün qətiyyən yetərli deyil.***

–Bəli, bu il Ermənistanın 24 aprel oyunbazlığı başqa əhval-ruhiyyədə keçdi. Son 1 əsrdə qondarma soyqırımı mifinin ağıla gələn və gəlməyən ən iyrənc üsullarla təbliği dünyanın dörd bir tərəfindəki ermənilərə elə inandırıb ki, artıq “soyqırımı” ifadəsi harada yaşamasından asılı olmayaraq bu xəstə ruhlu toplumda hər kəsi dərindən həyəcanlandırır.

Hər il anım tədbirlərinin təşkil olunduğu ölkələrdən hansındasa çıxış edənlərin nitqində “soyqırımı” sözünün ifadə edilməməsi onları məyus edir. Bu sözün səsləndirilməsi isə onları ehtizaza gətirir, ermənilərdə məmnunluq hissi yaradır. Normal insan psixikasına zidd olan bu davranışdan siyasət dünyasında məharətlə ermənilərin özünə qarşı istifadə olunur. “Soyqırımı” sözünün səsləndirilməsi müqabilində erməni toplumunun istənilən xəyanətə və cinayətə gedə biləcəyinə əmin olan xarici siyasi dairələr öz geopolitik maraqlarını təmin etmək üçün elə bir əsrdir ki, onlardan alət kimi istifadə edirlər.

Ermənilərin zaman-zaman Anadoluda və Qafqazda “əlaltı”, “casus”, “forpost”, “kiçik bacı” və s. kimi çox müxtəlif rollarda oynamağa təhrik edən bütün güc mərkəzləri növbə ilə özlərinin regiondakı maraqlarını təmin etməyə çalışırlar. Əvəzində isə erməni toplumunu bu sözü səsləndirməklə “sevindirirlər”. Doğrudur, bircə dəfə 1918-ci ildə Azərbaycan türklərinə məxsus 9 min kvadratkilometrdə onlara dövlətcik bəxşiş ediblər və daha sonra yenə Azərbaycan torpaqları hesabına bu ərazinin 3 dəfə böyüdülərək 29 min kvadratkilometrə çatdırılmasına nail olublar. Bütün bunlara baxmayaraq, Qərb ölkələrindəki və Şimaldakı havadarlarının Azərbaycandan qoparıb ermənilərə hədiyyə etdikləri “müstəqil dövlət” 101 il keçsə də regionda heç bir statusu və strateji çəkisi olmayan kvazi-dövlət şəklində mövcuddur.

Özlərinə vətən və dövlət qurmaq istədikləri bölgənin əzəli sahibləri ilə dialoq və barış axtarmaq əvəzinə, böyük güclərin çəkmələrini yalamaqdan çəkinməyən ermənilər dünyada “soyqırımı qurbanı” sayılmaqdan, “cəfakeş xalq” adlandırılmaqdan və bu kimi epitetlərlə alçaldılmaqdan ləzzət alan yeganə toplumdur. Ona görə ermənilərin saxta soyqırımı qurbanlarının saxta anım tarixini şənlik kimi qeyd etməsi də təbii qarşılanmalıdır.

Onillərlə xəyallarında Amerika prezidentlərinin dilindən “erməni soyqırımı” ifadəsini eşitmək arzusu ilə yaşayan, çarpışan başabəla toplum Cozef Baydenin ermənilərin anım günü münasibətilə çıxışında həmin sözü, nəhayət, səsləndirməsi ilə çoxillik arzularına qovuşdular. Bu dəfə şəxsən ABŞ Prezidentinin dilindən onların əcdadlarının “soyqırımı qurbanları” adlandırılması ermənilərin 101 illik psevdo-dövlətçilik tarixinin ən böyük “uğurudur”.

Lakin bir neçə gün keçəcək, bu eyforiya da öləziyəcək. Baydenin “soyqırımı” ifadəsini işlətməsinin ermənilərin həyatını dəyişdirmədiyini və özlərinə əbədi düşmən saydıqları Türkiyənin yenə də ABŞ ilə hərbi-strateji müttəfiqliyinin davam etdiyini gördükcə onların indiki sevincinin əbəs olduğunu anlayacaqlar. Lakin istəklərinə çatmadıqlarını qansalar da, xislətlərini dəyişməyəcəklər, gələcək məkrli planlarından əl çəkməyəcəklər. Beləliklə, növbəti bir məyusluq dünya erməniliyini matəm içində yeni onilliklərə aparacaq. Baydenin yanlış ifadəsi isə qardaş Türkiyə üçün heç bir hüquqi qüvvə daşımır və bununla bağlı ciddi kədərlənməyə də dəyməz.

***– Sələflərindən fərqli olaraq, ABŞ-ın yeni Prezidenti Cozef Baydenin 24 aprel açıqlamasında “erməni soyqırımı” ifadəsini işlətməsi qardaş Türkiyədə olduğu kimi, Azərbaycanda da 1915-ci ildə Anadoluda baş vermiş hadisələrlə bağlı tarixi həqiqəti ifadə etməyən, regionda yaranmış yeni gerçəkliyə qarşı yönələn birtərəfli siyasi qiymət kimi qarşılandı.***

– Bu, tamamilə təbii bir reaksiyadır və böyük Atatürkün “Türkiyə ilə Azərbaycanın kədərinin də, sevincinin də ortaqlığı” və ulu öndər Heydər Əliyevin ifadə etdiyi “bir millət iki dövlət” gerçəkliyinin yenilməz gücünü bir daha nümayiş etdirdi. Okeanın o tayından alınan uğursuz xəbərdən dərhal sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında qurulan telefon danışığı xalqlarımızın və dövlətlərimizin ortaq maraqları izlədiklərinin növbəti parlaq ifadəsi oldu. Bu operativ xəbərləşmə zamanı dövlət başçıları ABŞ Prezidenti C. Baydenin qondarma “erməni soyqırımı” ilə əlaqədar verdiyi qərəzli bəyanatı qınadılar.

ABŞ kimi həqiqəti qorumalı olan superdövlətin başçısının 106 il əvvəlin hadisələrinə verdiyi qiymətin yanlış olduğunu qeyd edən Prezident İlham Əliyev bu addımı tarixi səhv adlandırdı. Dövlətimizin başçısı, eyni zamnda, xalqımızın bu qiyməti qəbuledilməz hesab etdiyini vurğuladı. Söhbət zamanı Prezident İlham Əliyev açıqlamanın regionda yaranmaqda olan əməkdaşlıq meyillərinə ciddi zərər vurduğunu bildirdi.

Dövlətimizin başçısı Azərbaycanın hər zaman Türkiyənin yanında olduğunu qeyd etdi.

Prezident Rəcəb Tayyib Ərdoğan dəstəyə və ifadə etdiyi mövqeyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi. O da Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu diqqətə çatdırdı.

Dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin bütün sahələrdə yüksələn xətt üzrə inkişafından məmnunluqlarını ifadə etdilər.

Elə həmin gün Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlu arasında da telefon danışığı oldu. Azərbaycanın xarici siyasət idarəsinin rəhbəri bəzi dövlətlərin başçılarının 1915-ci il hadisələrini siyasiləşdirmək cəhdlərinin qəbuledilməz olduğunu bildirdi və ABŞ Prezidentinin erməni anım günü ilə bağlı bəyanatının tarixi həqiqətlərin təhrifi olduğunu vurğuladı. O, Türkiyəli həmkarına 1 əsr bundan öncə baş verən hadisələr yanlış təqdim edildiyi halda, 30 il bundan əvvəl təcavüzkar Ermənistanın Xocalıda azərbaycanlılara qarşı törətdiyi soyqırımına hələ də ədalətli qiymət verilməməsinin qərəzlilik və ikili standart nümunəsi olduğunu söylədi. Nazirlər tarixin saxtalaşdırılmasının və onun siyasi məqsədlər üçün istifadə edilməsinin qəbuledilməz olduğunu qeyd etdilər.

Belə məkrli və çirkin oyunlarla ermənilərin nəyə nail olmaq istədiklərini biz yaxşı bilirik. Amma onlar bilmirlər ki, miflər üzərində qurulan hər bir hekayənin bir gün həqiqət qarşısında faş olub puça dönməsi labüddür. Bir qərinəlik son Qarabağ avantürasında olduğu kimi. Bu cəhdlərin uğursuzsuzluğunun xəbərdarlığını bu günlərdə BMT Baş katibinin sözçüsü Stefan Dücarrik verib. Soyqırımlarının Qarşısının Alınması üzrə BMT Ofisinin veb-saytında “soyqırımı” termininin izahında erməni adının niyə çəkilməməsi haqqında verilmiş sualı cavablandırarkən Stefan Dücarrik açıq mətnlə deyib: “Soyqırımı aktı BMT tərəfindən yox, müvafiq məhkəmə orqanı tərəfindən təsbit olunmalıdır. Yaxşı olar ki, bu barədə məhkəməyə müraciət olunsun. Bu, son illərdə bir neçə dəfə qaldırılan məsələdir. Biz BMT-nin yaranmasından əvvəl baş verən hadisələrə münasibət bildirmirik. Fərqli vəziyyətlərdə və fərqli şərtlərdə soyqırımı həqiqətinin müvafiq məhkəmə orqanı tərəfindən müəyyənləşdirilməli olduğunu bildirmişik”.

Belə bir məhkəməyə müraciət etmək isə dünya miqyasında uydurulmuş və böyük yalanın ifşası və 106 il ərzində ermənilərin uydurduğu saxta hekayələrin acı sonluğu olar. Bunu ermənilər özləri də yaxşı bilir və ona görə də istəklərinə hüquqi müstəvidə çatmağın mümkün olmadığını anlayıb siyasi oyunlarla nəyəsə nail olmağa ümid bəsləyirlər. Siyasət meydanında qazandıqları isə, son 1 əsrin göstərdiyi kimi, güclülərə alət olmaqdan başqa bir şey deyil. ABŞ-ın yeni prezidenti də bunu bilməmiş deyil. Bəs niyə o, “soyqırımı” dedi? Baydenin dilindən “soyqırımı” ifadəsini eşidib eyforiyaya uğrayan ermənilər, şübhəsiz, bu sualı özlərinə verib cavab tapmağa səy göstərməyəcəklər, çünki onlar onillərdən bəri həsrətində olduqları sözü, nəhayət, eşitdiklərindən artıq xoşbəxtdirlər.

***– Siyasətin çoxqatlı, ən azı, ikibaşlı bir sənət olduğunu nəzərə alsaq, görərik ki, Baydenin bu kəlməni işlətməsi, əslində, yenə də ermənilərin xeyrinə deyil. Belə ki, 44 günlük müharibə bölgədəki vəziyyəti kökündən dəyişib.***

– Əlbəttə, Azərbaycanın ötən ilin payızında Vətən müharibəsində 30 ildən bəri həllini gözləyən beynəlxalq ədaləti öz gücünə bərpa etməsi, Türkiyənin regionda çəkisinin və iştirakının artması, Rusiyanın bu yeni reallıqlara nisbətən dözümlü münasibəti bölgə dövlətləri üçün qarşılıqlı əməkdaşlıqdan başqa heç bir seçim qoymur. Qarşılıqlı əməkdaşlıq isə bütövlükdə, dünyanın bu hissəsində bölgədaxili ziddiyyətləri istisna edir. Belə bir vəziyyət bütün bölgə ölkələrini, hətta Ermənistanın az-çox praqmatik düşünən dairələrini və xüsusilə, dilənçilik səviyyəsində yaşayan əhalisini də realliğa ayıq nəzərlərlə baxmağa məcbur edir.

Qarabağ uğrunda Azərbaycanın apardığı 44 günlük müharibədən sonra ölkəmizin Türkiyə ilə birgə irəli sürdüyü altıtərəfli əməkdaşlıq layihəsi hər iki ölkənin Ermənistanla münaqişə səhifəsini qapatmaq üçün yaratdığı tarixi şansdır. Bu layihədə iştirak təklifi Ermənistanı regional əməkdaşlığın ən böyük benefisiarına çevirmiş olar. Belə bir əməkdaşlığın baş tutacağı halda bölgəyə kənardan müdaxilə imkanları maksimum dərəcədə məhdudlaşar. Bu isə, görünür, regionda maraqları olan böyük güc sahiblərini, o cümlədən, ABŞ-ı qane etmir. Ona görə böyük güclər bölgədə sabitliyi və sülhü yox, daimi gərginliyi dəstəkləməkdə maraqlıdırlar. Baydenin “soyqırımı” sözünü tələffüz etməsi də məhz mümkün bölgədaxili əməkdaşlığı öz maraqlarına tabe etməyə, bölgəni özlərindən asılı vəziyyətdə saxlamağa xidmət edir.

Digər tərəfdən, ABŞ-ın hegemonluq iddiası o qədər miqyaslıdır ki, onun yeni rəhbəri bir çox strateji müttəfiqlərinin Cənubi Qafqazda sülhün və sabitliyin bərpasında maraqlı olduğunu belə nəzərə almadan bu addımı atıb. Donald Trampın prezidentlik tarixçəsində gördüyümüz kimi, ABŞ-ın Avropadakı müttəfiqlərinin maraqlarını nəzərə almadan atdığı belə addımlar Transatlantik müttəfiqliyin özünü də təhdid etməyə qadirdir. Amma hər bir Amerika prezidentinin, o cümlədən, Cozef Baydenin öz seçicilərinə verdiyi vədlər də var. Görünür, respublikaçılarla rəqabətdə daxili siyasi partiya maraqlarının qorunması demokrat lider üçün xarici müttəfiqlərinin maraqlarından daha önəmlidir.

***– Şübhəsiz, ABŞ-ın indiki dövlət başçısı Cozef Bayden ötən əsrin 80-ci illərində Prezident Ronald Reyqanın məsləhətçisi olmuş Brüs Feynin verdiyi aşağıdakı mötəbər rəylə tanış idi: “Erməni soyqırımı” məsələsi heç bir əsasa söykənmir, belə ki, 1915-ci ildə daha çox türk həlak olub, nəinki erməni. Biz Prezident Reyqanın tapşırığı əsasında bu məsələ ilə bağlı o zaman araşdırma apardıq. Bir sıra arxiv sənədləri tapıldı, hansı ki, onlar Avropa və o zamankı Osmanlı İmperiyasının hərbi arxivlərində qorunurdu. Araşdırma nəticəsində məlum oldu ki, o hadisələrdə daha çox türk həlak olub, nəinki erməni. “Erməni soyqırımı” barədə nağıl, erməni tarixçilərinin xülyalarının məhsuludur. Erməni bandit birləşmələri 2 milyondan artıq türk öldürüblər”.***

– Əlbəttə, ABŞ prezidenti bu rəylə tanışdır, əsl həqiqətin necə olduğunu da yaxşı bilirdi. Neyləyəsən ki, siyasətin öz “cari həqiqətləri” var. Bayden də bu “həqiqətlər”in birinə “sadiq” qalıb. Amerika prezidentindən fərqli olaraq, çoxsaylı beynəlxalq təşkilatların, o cümlədən, BMT Baş katibi Antonio Qutterişin partiyası yoxdur və onların siyasi karyerası seçicilərin verəcəyi səslərdən asılı deyil. Ona görə də ABŞ Prezidentinin 1915-ci il hadisələrini “erməni soyqırımı” adlandırmasına rəğmən bu günədək heç bir beynəlxalq təşkilat bu hadisələrin əsil mahiyyətini təhrif etməyə meyil göstərməyib.

O ki qaldı, bu günlərdə, ermənilərin, guya, ABŞ ilə Türkiyəni üz-üzə qoyduqlarını zənn etmələrinə, bu, qətiyyən belə deyil. Türkiyə ilə ABŞ-ın tarixən formalaşmış münasibətləri o qədər dərin və əhatəlidir ki, bütün bunları hər iki tərəf cari, məhəlli siyasət xatirinə səsləndirilmiş ötəri bir ifadəyə qurban verməzlər. Türkiyə bu uydurma soyqırımı oyunu ortaya atıldığı gündən Ermənistana dəfələrlə ortaq tarixi komissiya yaradılması barədə öz təklifini verib. Bu avantüranı siyasi məqsədlər üçün uydurduqlarını, həqiqətin aşkar edilməsinin onlara sərf etmədiyini yaxşı bilən dünya erməniliyi Türkiyənin bu təklifindən oddan qorxan sayağı boyun qaçırmışdır.

***– “Erməni soyqırımı” oyunları arxasında böyük dövlətlərin gizlətdiyi həqiqəti Türkiyə ermənilərinin patriarxı Sahak Maşalyan belə ifadə etmişdir: “Bəzi ölkələrdə xalqımızın acısını və əcdadlarımızın müqəddəs xatirəsinin gündəlik siyasi məqsədlər üçün alətə çevrilməsini görmək bizi üzür”. Bu mənada, ABŞ Prezidenti dünya erməniliyinə yeni bir üzüntü bəxş edib.***

– Bu üzüntünün həqiqi kökləri tarixdə heç bir erməni soyqırımının olmamasındadır. Sizin xatırlatdığınız amerikalı dövlət müşaviri Brüs Feyn 106 il əvvəlin həmin gerçəyini belə ifadə edib: “Yunanlar, kürdlər, çərkəzlər, ərəblər və ermənilər o dövrlərdə Türkiyədə kifayət qədər yüksək vəzifələr tuturdular. Birinci Dünya müharibəsi illərində ermənilər vətəni sataraq, Osmanlı İmperiyasının düşmənlərinin tərəfinə keçdilər. Ermənilər ruslarla çiyin-çiyinə vuruşurdular. Onlar türk və gürcü kəndlərini talayır, dinc əhalini qırırdılar. Araşdırma aparılarkən Türkiyə tərəfi onların arxivlərindən istifadə etməyə icazə verdi, amma ermənilər qəti surətdə öz arxivlərinin açılmasına icazə vermədilər. Mənim nəzərimcə, əgər o arxivlərin açılmasına nail olunsa, həqiqət mütləq üzə çıxacaq. O zaman ermənilər tarixi böhtana görə dünya, xüsusən də türklərin qarşısında üzr istəməli olacaqlar.”

***– Bütün bunların Ermənistan siyasi dairələrində anlaşılması qeyri-mümkün görünür.***

– Çünki ermənilər hələlik “soyqırımı” şənliklərindədirlər. Lakin dünya erməniliyinin bu günlərdəki sevinci onların davamlı “soyqırımı üzüntüsü”nə son qoyacaq qədər uzunömürlü olmayacaq. Şübhəsiz, dünya erməniliyinin ABŞ-dakı “soyqırımı oyunu bu xəstə ruhlu topluma yeni üzüntü yaşadacaq!

*Söhbəti hazırladı:*
***Tahir AYDINOĞLU,***
***“Xalq qəzeti”***